# "Dələduzluq cinayətlərinə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında"

## Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun

## Q Ə R A R I

Bakı şəhəri № 1 31 yanvar 2002-ci

Ölkəmizdə iqtisadi münasibətlərin dəyişməsi, yeni mülkiyyət formalarının yaranması, vətəndaşlar, idarə, müəssisə və təşkilatlar arasında yeni hesablaşma qaydalarının tətbiqi ilə əlaqədar olaraq son illərdə dələduzluq cinayətlərinin sayı xeyli artmışdır.

Özgənin əmlakını başqa formada talama cinayətləri kimi dələduzluq cinayətlərində də son məqsəd başqasının əmlakını qanunsuz yolla ələ keçirmək olsa da, bu cinayətlər özünün törədilmə metodlarına və üsullarına görə həmin cinayətlərdən əhəmiyyətli dərəcədə fərqlənir. Bu fərq əsasən dələduzluq cinayətinin tərkibinin obyektiv cəhətində, yəni törədilmə üsulunda özünü göstərir. Belə ki, dələduzluq cinayəti zamanı təqsirləndirilən şəxsin qəsdi təkcə özgənin bilavasitə əmlakına deyil, bəzi hallarda bu əmlaka olan hüquqlara qarşı yönəlir.

Dələduzluq cinayətləri aldatma və ya etibardan sui-istifadə etməklə həyata keçirilir. Belə cinayətlər çox vaxt əmək, podrat, tapşırıq və bu kimi müqavilələrin bağlanması, həyata keçirilməsi prosesində təqsirləndirilən şəxsin özgənin əmlakını qanunsuz yolla ələ keçirmək kimi cinayətkar məqsəd güdməsi ilə əlaqədar olur.

Hazırda təqsirləndirilən şəxslərin bir və ya bir neçə şəxsdən onların əmlakını əslində sonradan qaytarmamaq niyyətilə borc adı ilə alması halları geniş yayılmışdır. Təqsirləndirilən şəxslərin bu niyyətlərinin özgənin əmlakının ələ keçirilməsinə yönəldiyi təsdiq olunduqda məhkəmə təcrübəsi dələduzluq cinayətinin mövcudluğu ilə razılaşır.

Bunlarla yanaşı məhkəmə təcrübəsində qanunun tələbinin məhkəmələr tərəfindən eyni mənada başa düşülməməsi, xüsusilə də borc götürmüş şəxsin maddi imkansızlıq üzündən, (o cümlədən müflisləşmə nəticəsində) borcu qaytara bilməməsi, müqavilə öhdəçiliyini yerinə yetirmək iqtidarında olmaması hallarının dələduzluq kimi tövsif edilməsi, habelə dələduzluq cinayətinin qanuni əsas olmadan bir neçə maddə ilə tövsif edilməsi halları da mövcuddur.

Cinayət işlərinə baxılarkən bəzi məhkəmələr tərəfindən ibtidai araşdırmanın keyfiyyətinə lazımi tələbkarlıqla yanaşılmır, təqsirləndirilən şəxslər tərəfindən qanunsuz ələ keçirilmiş əmlakın miqdarı, pul, qiymətli kağızlar, qızıl-zinət şeylərinin məbləğləri dəqiq müəyyən edilmir, vurulmuş ziyanın ödənilməsi üçün lazımi səviyyədə səy göstərilmir. Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsində Azərbaycan Respublikasında pul vahidinin manat olması təsbit olunmasına

baxmayaraq, ziyanın məbləği bir çox hallarda xarici valyuta olan - ABŞ dolları ilə müəyyənləşdirilir.

Eyni zamanda istər ibtidai araşdırma orqanı və istərsə də məhkəmələrin fəaliyyətində yeni cinayət qanunvericiliyinin normalarının tətbiqi ilə əlaqədar olaraq nöqsanlara və qanun pozğunluğuna yol verilmə halları mövcuddur.

2000-ci il sentyabrın 1-dən qüvvədə olan Cinayət Məcəlləsi dələduzluq cinayətinin tövsüfü üçün bir sıra yeni əlamətlər müəyyən etdiyindən və bu növ cinayətlər üzrə qanunvericiliyin eyni qaydada tətbiq edilməsi məqsədi ilə Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumu

**QƏRARA ALIR:**

1.Məhkəmələr nəzərə almalıdırlar ki, Cinayət Məcəlləsinin 178-ci maddəsində nəzərdə tutulmuş dələduzluq, yəni etibardan sui-istifadə və ya aldatma yolu ilə özgəsinin əmlakını ələ keçirmək və ya əmlak hüquqlarını əldə etmə o halda dələduzluq hesab edilir ki, təqsirləndirilən şəxsin niyyəti əmlakı ələ keçirərkən və ya əmlak hüquqları əldə edərkən hər-hansı öhdəliyin yerinə yetirilməsinə deyil, özgənin əmlakını əvəzsiz və qanunsuz olaraq öz mülkiyyətinə keçirməsinə və yaxud əmlak hüquqları əldə etməsinə yönəlmiş olsun.

Dələduzluğun mənası baxımından əmlak hüquqları əldə etmə dedikdə müxtəlif əşyalar üzərində mülkiyyət hüququ, girov hüququ, tələb hüququ və varlanmaya səbəb olan sair hüquqları qanunsuz əldə etmə başa düşülməlidir. Bu hüquqlar müqavilələr və digər öhdəliklərdən əmələ gələn müvafiq sənədlərdə (məsələn, etibarnamədə, vəsiyyətnamədə, qiymətli kağızlarda, hesablaşma və sığorta sənədlərində və s.) əks oluna bilər.

2. Məhkəmələr nəzərə almalıdırlar ki, dələduzluq etibardan sui-istifadə yolu ilə törədildikdə təqsirləndirilən şəxsin özgə əmlakını və ya əmlaka olan hüququ ilə ələ keçirmək niyyətinin, əmlakın və ya əmlaka olan hüququn ona etibar edildiyi ana qədər yaranması sübuta yetirilməlidir.

Əmlakın geri qaytarılmaması obyektiv hallarla, yəni müflisləşmə və ya uğursuz kommersiya fəaliyyəti nəticəsində, borclunun əmlakının oğurlanması və bu kimi sair hallarla əlaqədar olmuşdursa, kreditor və borclunun qarşılıqlı münasibətləri mülki qanunvericilik əsasında tənzim olunmalıdır.

Məişət bürovuzu (prokatı) müqaviləsi üzrə alınmış əmlakın qaytarılmaması o hallarda Cinayət Məcəlləsinin 178-ci maddəsi ilə nəzərdə tutulan cinayət məsuliyyətinə səbəb ola bilər ki, təqsirləndirilən şəxs aldatma və ya etibardan sui-istifadə etmə yolu ilə həmin əmlakı əvəzsiz olaraq öz mülkiyyətinə keçirmək niyyətində olsun.

3. Şəxsin aldatma və ya etibardan sui-istifadə etməklə pensiya, müavinət və başqa ödənişlər şəklində dövlət vəsaitlərini alması dələduzluq yolu ilə əmlakın ələ keçirilməsi kimi qiymətləndirilməlidir.

Əmlakın bu yolla ələ keçirilməsi hüquq verən və ya vəzifələrdən azad edən saxta sənədlərdən istifadə etməklə həyata keçirildikdə, əməl cinayətlərin məcmusu qaydasında CM-nin 178-ci, 320.1 və 320.2-ci maddələri ilə tövsif edilməlidir.

Belə halda bilə-bilə həmin məqsəd üçün təqsirləndirilən şəxsə saxta sənədlər verən şəxs vəzifəli olub-olmamasından asılı olmayaraq dələduzluğa köməkçiliyə (CM-nin 32.5 və 178-ci maddələri) və sənədləri saxtalaşdırmaya (vəzifəli şəxs olduqda CM-nin 313-cü, vəzifəsiz şəxs olduqda isə 320-ci maddəsi) görə cinayətlərin məcmusu qaydasında məsuliyyət daşımalıdırlar.

4. Satış məqsədi ilə saxta pul, qiymətli kağızlar, xarici valyuta hazırlanması dələduzluq cinayətinin əlamətlərini təşkil etsə də, həmin əməllər Azərbaycan Respublikası CM-nin 204.1-ci maddəsində xüsusi norma kimi nəzərdə tutulduğundan, həmin maddə ilə də tövsif olunmalıdır.

Saxta pulun, xarici valyutanın və ya qiymətli kağızların satılması o zaman dələduzluq kimi qiymətləndirilə bilər ki, onlar aşkar formada əslindən fərqlənsinlər və həmin pulun, valyutanın və qiymətli kağızların dövriyyədə istifadə edilməsi istisna edilsin. Bu zaman təqsirləndirilən şəxsin qəsdinin aşkar surətdə məhdud şəxslər dairəsinin aldadılmasına yönəlməsi sübut edilməlidir.

Bununla yanaşı saxta lotoreya bileti əsasında uduş (pul, əmlak) əldə edilməsi CM-nin 204-cü maddəsinin dispozisiyası ilə əhatə olunmadığına görə saxta lotoreya, yəni saxta qiymətli kağız təmin edilməklə özgəsinin əmlakını ələ keçirmə CM-nin 178-ci maddəsi ilə tövsif olunmalıdır.

5. Qızıl pul adı ilə saxtalaşdırılıb hqiqi sikkə kimi ayrı-ayrı şəxslərə satılma halları valyuta əməliyyatı qaydalarının pozulması kimi deyil, dələduzluq kimi qiymətləndirilməlidir.

6. Vətəndaşların pulunu və ya əmlakını ələ keçirmək məqsədilə, narkotik vasitə, psixotrop, güclü təsir edən və ya zəhərli maddələr adı ilə hər hansı başqa vasitə və ya maddələri satan şəxslərin əməli dələduzluq kimi tövsif olunmalıdır. Belə halda alıcılar, qanunda nəzərdə tutulmuş əsaslar olduqda, narkotik vasitələrin, psixotrop, güclü təsir edən və ya zəhərli maddələri əldə etməyə cəhdə görə məsuliyyətə cəlb oluna bilərlər.

7. Başqa şəxsə rüşvət verəcəyi adı ilə aldatma və ya etibardan sui-istifadə etməklə özgəsinin əmlakını mənimsəmək üçün ələ keçirən təqsirləndirilən şəxsin əməli dələduzluq kimi tövsif edilməlidir. Nəzərə almaq lazımdır ki, burada əmlak başqasına rüşvət vermək adı ilə ələ keçirilsə də təqsirləndirilən şəxsin məqsədi özgənin əmlakını ələ keçirilməyə yönəldiyindən bu əməl vahid qəsdlə əhatə olunur. Belə halda əməl Cinayət Məcəlləsinin 178-ci maddəsi ilə nəzərdə tutulan cinayətin tərkibini

yaratdığından, onun eyni zamanda Cinayət Məcəlləsinin 31, 312-ci maddəsi ilə də tövsif edilməsinə ehtiyac yoxdur.

8. Özünü vəd etdiyi öhdəliyi yerinə yetirə biləcək vəzifəli şəxs kimi təqdim edərək, göstərəcəyi xidmət müqabilində hər hansı şəxsdən pul və ya digər qiymətli şeylər alıb, onları mənimsəyən şəxs də dələduzluğa görə məsuliyyət daşımalıdır.

Belə hərəkətlər vəzifəli şəxslər tərəfindən törədildikdə isə təqsirkarın əməli Cinayət Məcəlləsinin 178.2-3cü maddəsi ilə tövsif edilməlidir.

9. Məhkəmələr nəzərə almalıdırlar ki, dələduzluq cinayəti nəticəsində dövlət və ya vətəndaşlara vurulmuş ziyanın məbləği Azərbaycan Respublikası ərazisində ödəniş vasitəsi olan pul vahidi ilə, yəni manatla müəyyənləşdirilməlidir.

10. Bu qərarın qəbul edilməsi ilə əlaqədar olaraq "Özgə əmlakını qanunsuz ələ keçirmə və talama işləri üzrə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 1999-cu il 14 may tarixli 9N-li qərarının 9 və 10-cu bəndləri qüvvədən düşmüş hesab edilsin.

**S.C.Həsənova**
**Azərbaycan Respublikası Ali Məhkəməsinin Sədri**